AZAD ŞƏRİF

# XX ƏSR AZƏRBAYCANININ YARADICI NƏSİLLƏRİ

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin hədiyyəsi
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

BAKI - 2007

# SƏHNƏNİN SEHRİ



SSRİ və Azərbaycanın xalq artisti, Dövlət mükafatı laureatı Mehdi Məmmədov səhnədə ilk addımlarını 13 yaşında ikən atmışdı. O, Azdramanın köməkçi heyətində çıxış etməklə bərabər, teatr texnikumunda da təhsil alırdı. Sonradan isə Moskvaya yollanaraq, «QİTİS»in rejissorluq fakültəsinə daxil olub.

M.Təhmasibin pyesi əsasında yaradılan «Bahar» tamaşası M.Məmmədovun diplom işi olub. Tamaşa Gəncə Dram teatrında nümayiş olunub.

Aradan xeyli müddət keçəndən sonra Mehdi Məmmədov ən yaxşı tamaşaları sırasında «Samanlıqda it» və «Madrid»in adını çəkir.

1945-ci ildə M.Məmmədovu Bakıya Teatr İnstitutuna müəllim dəvət edirlər. Burada onun rəhbərliyi altında bir neçə istedadlı Azərbaycan rejissoru yetişir.

Müxtəlif illərdə ona Opera, Akademik Dram Teatrı və Rus Dram Teatrının direktoru və baş rejissoru vəzifələri etibar edilir. Ancaq M.Məmmədovu yaradıcı bir iş kimi rejissorluq daha çox özünə çəkirdi. Onun tərəfindən milli, rus və xarici pyeslər əsasında çoxsaylı tamaşalar ərsəyə gətirilmişdir. Mənim yaşıdlarım, bizim nəslin nümayəndələri C.Cabbarlının «Od gəlini» və «Yaşar», M.İbrahimovun «Madrid» və «Kəndli qızı», N.Qoqolun «Müfəttiş», L.Tolstoyun «Canlı meyit», Şekspirin «On ikinci gecə» əsərləri əsasında qoyulmuş tamaşaları yəqin, yaxşı xatırlayarlar. M.Məmmədovun «Koroğlu» və «Leyli və Məcnun» operalarına verdiyi quruluş da çoxlarının yaddaşında dərin iz buraxıb. Ancaq onun Fikrət Əmirovun «Sevil» operası üzərindəki rejissor işi zənnimcə xüsusilə yaddaqalan olub. Hüseyn Cavidin «İblis» pyesinə verdiyi quruluşa görə isə o, Azərbaycan Dövlət mükafatı laureatı adına layiq görülüb.



Rejissorluq və müəllimlik fəaliyyətindən savayı Mehdi Məmmədov elmi işlə də çox ciddi məşğul olub. Onun tərəfindən 50-dən yuxarı elmi əsər və dərs vəsaiti ərsəyə gətirilib. «Azərbaycan sovet dramaturgiyasının estetik problemləri» adlı fundamental əməyinə görə ona, müdafiəsiz sənətşünaslıq doktoru elmi dərəcəsi verilib.

Mehdi Məmmədov uzun illər ərzində Azərbaycan Teatr Cəmiyyətinə rəhbərlik edib. Mənə bir çox illər ərzində Mehdi müəllimlə ünsiyyətdə olmaq xoşbəxtliyi nəsib olub.

O, həddən ziyadə mədəni və erudusiyalı bir şəxs idi. Mən şəxsən M.Məmmədovun rejissoru olduğu, Hüseyn Cavidin «Ömər Xəyyam» pyesi əsasında Azərbaycan Dram Teatrının səhnəsində nümayiş olunan tamaşanı heç zaman unutmayacağam.

Onun rejissorluq istedadı Allah vergisi idi.

**Mehdi Məmmədovun ömür-gün yoldaşı, Azərbaycanın xalq artisti Barat Şəkinskaya** ibtidai təhsilini Şuşada almışdı. Bundan sonra o, təhsilini Dilbazi və Həmid Araslının dərs dediyi, Gəncədə yerləşən ikiillik qızlar məktəbində davam etdirmişdi. 13 yaşında olarkən Barat Gəncədəki Qadınlar klubunun dram dərnəyinə yazılır. O, burada bir neçə tamaşada çıxış edir. Onların arasında Hüseyn Cavidin «İblis» pyesi əsasında qoyulan tamaşada Xavər rolunun ifasını qeyd etmək olar. Bundan sonra o, Gəncə fəhlə klubunda C.Məmmədquluzadənin «Ölülər», C.Cabbarlının «Od gəlini», «Sevil» əsərləri əsasında qoyulmuş tamaşalarda obrazlar yaradır.

Bundan bir il sonra Türk Fəhlə Teatrı Gəncəyə gəlir. Və burada fəaliyyət göstərən «Fəhlə klubu»nun həvəskar aktyorları da bu teatrda işləməyə başlayırlar. Barat Şəkinskaya da teatrın əsas truppasına qəbul olunur. Cəmi iki il ərzində o, Cəfər Cabbarlının «Aydın», «Oqtay Eloğlu», «Sevil», «Yaşar» əsərləri, eləcə də Süleyman Sani Axundovun «Eşq və intiqam» pyesi üzrə tamaşalarda çıxış edir.

1935-ci ildə Bakıya köçən Barat Şəkinskayanı Milli Dram Teatrına qəbul edirlər.

O, 1943-1945-ci illər ərzində doğma Gəncə Teatrında da tez-tez çıxış edirdi. Ancaq onun bir aktyor kimi geniş və əhatəli fəaliyyəti məhz Akademik Dram teatrının səhnəsində olur. Burada ona Q.Musayevin «Qızıl seçmə» pyesi üzrə Gülümsər rolunu, eləcə də A.Korneyçukun «Polad qartal» pyesində baş rolu (tamaşanın rejissoru Ədil İsgəndərov idi) həvalə edirlər. Bundan sonra onun zəngin aktyorluq qalereyasında rəngarəng rollar bir-birini əvəzləməyə başlayır. Onun Cəfər Cabbarlının pyesləri, eləcə də Səməd Vurğunun «Vaqif» və Mirzə İbrahimovun «Madrid» əsəri əsasında tamaşalarda ifa etdiyi rolları xüsusi qeyd etmək istərdim.

B.Şəkinskaya üçün komik rollar da yad deyildi. Onun «Yağışdan çıxdıq, yağmura düşdük», «Lənkəran xanının vəziri», «Xoşbəxtlər» əsərləri əsasında səhnələşdirilən tamaşalarda ifa etdiyi



rollar məhz bu qəbildəndir. O, aktyor kimi fəaliyyət göstərdiyi illər ərzində həmişə gənclərə yardım edər, topladığı təcrübəni onlarla bölüşərdi. B.Şəkinskaya ara-sıra bədii filmlərə də çəkilirdi. Onların arasında «O olmasın, bu olsun», «Telefonçu qız», «Qızmar günəş altında» filmlərini qeyd etmək yerinə düşər.

1978-ci ildə Barat xanım fərdi təqaüdə çıxdıqdan sonra «Mənim yaradıcılıq yolum» adlı sənədli povest üzərində işləməyə başlamışdı. Bu povestin bir hissəsi «İşıq» nəşriyyatı tərəfindən kiçik kitab formasında nəşr edilib.

**Mehdi Məmmədovun oğlu, Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət mükafatı laureatı Elçin Məmmədov** Musiqili Komediya və Opera teatrlarının baş rəssamı olub. O, respublikamızın bütün teatrlarında eskizlərin müəllifi və quruluşçu rəssamı kimi çıxış edərdi. Sovetlər məkanının bir sıra iri şəhərlərinin tanınmış rejissorları quruluş verdikləri tamaşalarda quruluşçu-rəssam kimi iştirak etmək üçün Elçinə dəfələrlə müraciət ediblər. Elçin 30-dan artıq tamaşada gördüyü tərtibat işinə görə istedadlı teatr rəssamı kimi də ad çıxarmışdı. Bu tamaşalar arasında «İki ağcaqayın», «Piki və Qvin», «Bomarşe», «Danabaş kəndinin məktəbi», «Şeyx Sənan», «Mezozoy əhvalatı», «Arşın mal alan» və s. adlarını çəkmək olar.

O, istedadlı rəssam kimi respublikamızın nəşriyyatlarında işıq üzü görmüş yüzlərlə kitaba yüksək səviyyədə tərtibat verib.

Elçin «Gənclik» nəşriyyatı ilə əməkdaşlıqdan xüsusi zövq alardı. Onunla nəşriyyatın direktoru Əlican Əliyevi bir-birinə dostluq telləri bağlayırdı. Elçin «Dədə Qorqud», «Koroğlu», «Xəyyam» kimi kitablara, eləcə də, «Cırtdanın nağılı»na çox nəfis tərtibat vermişdi. Professor İlham Rəhimlinin dediklərindən: «Elçinin «Cırtdanın nağılları» kitabına verdiyi bədii tərtibatı mədəniyyətimiz tarixində əlamətdar hadisə hesab edirəm. Bu kitab uşaqlar üçün nəzərdə tutulan nadir rəsmlərlə bəzədilib».

Yaxından tanıyanlar Elçini qeyri-adi şəxs kimi xarakterizə edirdilər. O, bir neçə sahədə istedad sahibi idi. İstedadlı rəssam olmaqla yanaşı gözəl fotoqraf idi, kompüter qrafikasından yaxşı baş çıxarardı.

Ədəbiyyat və musiqini sevən, ona dərindən bələd olan Elçin Məmmədov istedadlı aktyor kimi də bir sıra filmlərdə çəkilmişdi. Bu filmlər arasında «Yeddi oğul istərəm», «Dədə Qorqud», «Dantenin yubileyi»nin adlarını çəkmək olar.

Biz onunla adətən M.F.Axundovun heykəli önündə rastlaşardıq. O, həmişə harasa tələsər, daim kiməsə, nədəsə kömək etməyə can atardı.

Mövsumə Bağırova yazır: «Elçin əksəriyyət üçün nəhəng bir adam təsiri bağışlayardı. Necə deyərlər, belə nəhəng qayaya toxunan hər gəmi bir anın içində tikə-tikə olardı».

Ancaq qəfil ölüm belə bir parlaq və istedadlı ömrə son qoydu.